

Vəliyəddin
MİSİROĞLU
Yazıçı-
publisist,

# SÖZ ÜZƏNGİSİNDƏ AYAĞI BÜDRƏMƏDİ, DİLİ TOPUQ ÇALMADI SÜCAƏTİN

**Sücaətəm, neçə ki, var nəfəsim,**
**Sönməz odum, sönməz eşqim, həvəsim.**
**Ölsəm də məzardan gələcək səsim,**
**Əbədi sənətim, dilim var mənim.**

Şərq xalqlarında ta qədimdən bir adət olub: oğlanın on beş yaşı tamam olanda atası onun adına bəslədiyi atı yəhərləyib, yüyənləyib oğlunun qabağına gətirir. Yəhərin üzəngisini basıb: "Oğlum, qalx köhləninin belinə, sür, yorğası sənin boynuna", - deyir. Yəni at kimi bəsləyib, cilovunu möhkəm tutsan, atın yerişini dəyişməyəcək, büdrəməyəcək, yorğa olacaq...

Söz də belədir. Gərək onu dilində büdrətməyəsən, cilovunu bərk tutasan, yerində deyəsən. Çünki söz başında olsa və başda - ucada olsa şah olarsan. Şah olmaq üçün də təkcə qızıl tac kar eləməz. Taxtdan tez düşərsən. Necə ki, Bəhmən Vətənoğlu demişdi:

-Sən, çalış, tez düşmə mindiyin taxtdan,
Özgəsi çıxacaq taxta nə var ki...

Ona görə də söz sultanlığının və könül taxt-tacının zəngin olması üçün gərək dəngin dürüst, ağlın iti, sözün bütöv ola. Ona görə də sözə HƏZRƏTİ SÖZ deyirlər.

Söz köhlənini büdrətməyən və cilovunu bərk tutan şairlərdən biri də kağızlarda yox, ürəklərdə, dodaqlarda, dillərdə yaşayan Sücaət idi.

Ömür köhləni onu yarıyolda qoysa da, o, söz köhlənini çoxdan yalmanlayıb əyləşmişdi belində. Ayağını da bərk dirəmişdi üzəngiyə, büdrəmirdi. Yaman da yüyrək gedirdi... Sücaət cismani olmasa da, ruhən düşməyib söz köhləninin belindən.

**Mənim ürəyimdə min deyilməmiş**
**Söhbətim var hələ, sözüm var hələ.**
**Ömür tələsməsin, gün tələsməsin,**
**Həyata düşəsi izim var hələ.**

Ayrılığın buz əli qurusun. Sücaət əfsanə kimi uzaq, tarix kimi gerçək ömür yaşadı. Gerçəkdi ona görə ki, Sücaətin şeirlərinin bir misrası ilə könüllər ələ alınır, sevgililər bir-birilərinə qovuşurlar. Deməli, Sücaət də bu sevginin içərisində yaşayır.

O atını çapdığı dağlarda, çəmənlərdə söz gül-çiçək kimi dəstə-dəstə tökülürdü şairin dilindən. Bulaqlardan süzülüb gələn dağ çayları kimi aşıb-daşırdı, ümmanlara dönüb, ürəklərə dolurdu. Hər ürəkdə bir dərya məkanı yaratmışdı Sücaətin şeirləri. Sərt ürəkləri muma döndərir, donmuş kəlmələrin buzunu əridirdi. Kilidlənmiş dillərin açarıydı Sücaətin qoşmaları. Misralarındakı məhəbbət deyimlərinin odu-alovu sanki göydə günəşi yandırırdı.

**Sücaətəm, tufan batmaz tüstümə,**
**Göydə günəş külə döndü istimə.**

- deyirdi.

Mən Sücaəti ta gənclik illərindən tanıyırdım. O, rayonda kəskin sözü, iti qələmi, həm də maarifpərvərliyi, bədii təfəkkürü, sözə-sənətə vurğunluğu, elmə bağlılığı ilə tanınan bir nəsil-kökün ocağından pərvazlanmışdı. O nəsil-kökə xas olan bir dəlisovluq da vardı onda. Həm mərdanə dəlisovluq, həm də aşiqanə dəlisovluq. Bəlkə də bu dəlisovluq onun həyat yoluna çör-çöplü çəpərlər də çəkdi. Amma o çəpərə yenə də heç kəs boylana bilmədi. Sücaət yenə də öz yolundaydı. Çünki o, nə bayağı dəbə düşən və tez də dəbdən düşən şair, nə də ki, çuxa altında dəbilqə gizlədən adam deyildi. Onun "can dəbilqəsi" açıqdaydı, parıldayırdı. Ona görə həmişə nişana tuş gəlirdi.

Şair heç vaxt qıpıx olmuş, qısırlamış söz demirdi. Əksinə, onun şeirlərində dilimizdən kənarlaşan sözlər bir yerə yığışıb törəyir, artır, misralara bəzək verirdi.

Sücaətin söz yorğanı çox qalındı, misranın istiliyini kənara buraxmır qəti.

**"Ay vurulmuş, ayaq yalın, baş açıx,**
**O dərədə nə gəzirsən, belə çıx!"**
**Anam məni çağırdığı alaçıx,**
**Şillələyən əl yadıma düşübdü.**

Görürsünüzmü, təbii kənd danışıq dilimiz nə gözəl köçüb şairin misralarına!

Onun söz bostanına daş atan olmazdı. Qafiyə də özününkü olardı, içərisindən gələn səs də...

**Sücaətdi ismim, adım,**
**Sındım, amma qırılmadım.**
**Torpağına yoğrulmadım,**
**Mənə layla çalan dağlar.**

Sücaət əksər şeirlərində obraz özünü seçərdi, özüylə danışardı. Obrazı öz həniriylə qızdırıb, cana gətirərdi.

**Məğrur ataların qəmli söhbəti,**
**Ağlar anaların sinəsiyəm mən.**

Onun şairlik fırçası əlindəki qələmi, obrazın solmayan boyası isə bənzərsiz kəlmələri, yerində deyə bildiyi söz olub həmişə.

**Xəyalımda, yaddaşımda, yadımda**
**Kəlbəcərdən çıxa-çıxa qalmışam.**
**Bu tərəfin dərdləriylə yüklənib,**
**O tərəfə baxa-baxa qalmışam.**

**Göynəyirəm, dağda qara qoşulub,**
**Çürüyürəm, bağda bara qoşulub.**
**O ağlayan buludlara qoşulub**
**Gözlərimi sıxa-sıxa qalmışam.**

Sücaət sözün pas qatını elə sürtüb, sığallayıb açır ki, gündəlik dilimizdə işlənən sözlər onun misralarında par-par parıldayır. Şairin bənzətmə dili də çox zəngindir. Müqayisəyə baxaq: Göz yaşı həmişə hər şeydən əvvəl qəm-kədər təcəssümüdü. Sevincdən axsa da belə, yenə də duzludu. Amma şairin qələmində, görün, o nə qədər qibtə ediləsidi, dadlıdı. Şair özünü ona oxşatmaq, göz yaşının yerinə olmaq istəyir. Çünki o, sevgilisinin yanağından axıb gəlir. Deməli, həyatda hər şey öz yerində gözəldi; söz də öz yerində deyiləndə, insan da öz yerində olanda.

**Sücaəti unutma sən,**
**Həsrətindi məni didən.**
**Yanağından axıb gedən**
**Yaş yerinə mən olaydım.**

Sücaət şeirlərində həmişə məzmunlu mövzu axtarıb, ayaq-baş vuran, törtöküntülü söz yox. Elə mövzu ki, o, şeir dili ilə deyilməyib. Mövzu da zirvədə dayanıb şikarını gözləyir. Qafiyə də şairin başından tökülür. Çünki Sücaət qafiyə cəngavəriydi. O, həm də həyatda cəngavər idi. Onun qələmindən nə qafiyə, nə də ki, yumruğundan hər baş yayına bilməzdi.

**De, "Yağdı yağışlar, banladı quşlar",**
**Onda səni hamı... zaman da xoşlar.**
**Ha dartdıq, çıxmadı biqeyrət başlar,**
**Binamus... dürtüldü qaldı.**



Söz aid olan kəsə oğul deyərdim ki, bu misraların qabağından baş qaçıra bilsin. Bu, Sücaətin kəsərli söz qılıncıydı. Sücaətin sözünün tiyəsi yaman itidi, doğrayıb tökür, kəsdiyi yer də göyüm-göyüm göynəyir. Amma sözün qanı üzə çıxmır, zəhərə dönüb, söz götürənin içinə axır.

Sücaət sözə kəmənd atmır, sözə bələnir. O, sözü mətəsinə qədər izləyir. Söz yuvasına çatıb, rahatlaşandan sonra onu kəlməsinə qatıb deyərdi.

Sücaət dünya varı, mövqe üçün heç kəsə diz qatlamayıb, əksinə, qarşıdakının dizini çökdürüb. O, məxsusi şöhrət üçün heç vaxt heyfsilənməyib, dizinə döyüb, vay səni deməyib. İtirilən torpaqlarımız, talan olan mənəvi sərvətimiz üçün haray çəkib, - oyyy! - deyib. Ömrün Kəlbəcərli günləri, illəri üçün darıxıb, Kəlbəcərsiz keçən günlərə heyfsilənib.

**Yağıların ayağının altında**
**İtirilən torpağım, oyy... dağım oyy!**
**Sızım-sızım sızıldayan bulağım,**
**Viran olmuş güllərim oyy... bağım oyy!**
**və yaxud,**
**Tək qoymayın Sücaəti, yoxlayın,**
**Həyatımı sözlərimdən qoxlayın.**
**Keçən keçib, barı yadda saxlayın,**
**Vətən deyib, ağladığım illəri.**

Sücaət incə qəlbli, kövrək dilli könül sahibiydi. Vətən həsrəti şairi o qədər yandırıb, pörşələyir ki, deyir: "Bu həsrət mənim yanmış külümü göz yaşıma qatıb dondurur". O, vətən dərdini gah qarlı qışa, gah da qara dumana bənzədir. Gah da dərdi sürmə edib gözlərinə çəkir, göz yaşına qatıb, damcı-damcı axıdır.

**Güllə dəydi torpağıma, daşıma,**
**Baharıma, payızıma, qışıma.**
**Mən dağammı, bürünmüşəm başıma,**
**Ay qaranlıq, ay çəkilmiş duman dərd!**

və yaxud,

**Gah göl olur, gah çay olur, gah da sel,**
**Gözlərimdən damcı-damcı daman dərd...**

Sücaət acizləşib, dərddən qorxmur. O, çox dərdləri büküb dizinin altına qoyub. O, dünyanın haqsızlığından, ədalətsizliyindən gileylənir. İşğal olunmuş vətən torpağına qarşı göz yumub, səsini içinə salan dünya namərdlərinə nifrət səsini qaldırır. Bu sədanın Allaha çatacağına əmindi.

**Ürək! Od tut, ürək, alış, yan, ağla,**
**Ciyər, ağla, cəsəd, ağla, can, ağla!**
**Könül! Əbəs gəzmə, otur, qan ağla,**
**İtir ədalətlə haqq günü-gündən.**

Sücaət həmişə məhəbbətdə də ədalət axtarıb. O, sevən ürəkləri ilqar-imanın üzülməsindən, etibarsızlıqdan, yar dönüklüyündən, məhəbbətin ləkələnməsindən uzaq olmağa çağırır. Saf məhəbbət mayasını naməhrəm nəfəslərə qarışdırıb başqa ürəklərdə uyuşdurmaq istəyənlərin heç vaxt çalası tutmayacaq, mayalanmayacaq deyir. Əsl sevgi sevilən və sevən ürəkdə maya tutmalıdı. Kimisə beş günlük əyləndirmək üçün lilmar uyuşmamalıdır ki, axırda;

**-Gəncliyimin son illəri axar da,**
**Gözlər mənə elə-belə baxar da.**
**Könülsüz bir bina qurdum, axırda**
**Torpağı da yandı, daşı da yandı. - deməsin.**

Sücaət də bütün şairlərdə olduğu kimi qadın dünyasına vurğun şair idi. O, qadının mənəvi zənginliyinin, saf məhəbbətinin dəlisiydi. Amma dünyanın etibarsızlığını bəzi qadının etibarsızlığına bənzədirdi.

**Kim haqq gəzib, baş vurubsa dərinə,**
**Böhtan tapıb ədalətin yerinə.**
**Əxlaqsız qadın tək bu gün birinə,**
**Sabah başqasına qul həyatdı bu!**

- deyirdi.

Qeyd. Cavanlıq illərində Sücaət bu şeiri oxuyanda mən deyirdim: "Ay Sücaət, bəlkə bu "əxlaqsız" sözünü yumşaldıb "talesiz" sözü ilə əvəzləşdirəsən. Çünki qadının öz yuvası isti olsa, taleyi bəd gətirməsə, yolu dəyişilməz".

Deyirdi: "Düzdü, şərait, "yanıq məhəbbət" insanı haldan-hala salar, dünyanın da belə üzüdönük işləri var. Amma mən bu şeirimdə əsla qadınları təhqir etmir, onları düz yola, əsl məhəbbətin qulu olmağa çağırıram, həm də, qoy, onlar bu sözdən diksinib ayılsınlar".

**(ardı 13-cü səhifədə)**

# SÖZ ÜZƏNGİSİNDƏ AYAĞI BÜDRƏMƏDİ, DİLİ TOPUQ ÇALMADI SÜCAƏTİN

(əvvəli 7-ci səhifədə)

Şair dönüklərə, vəzifəyə, mülkə, şöhrətə satılanlara, sonra da atılanlara (bəziləri kimi) üz tutub deyir:

**- Get, qoy, ovundursun, get, qoy, isitsin**
**O soyuq qucaqlar, ağuşlar səni.**

və yaxud,

**Deyirlər, tükənmir amanın, ahın,**
**Nə yaman günləri varmış Allahın!**
**Şöhrətə həvəsin, pula tamahın**
**Axır, dərdə qurban verdimi səni?**

Qeyd. "Söz-sözü gətirər" - deyiblər. Mövzudan uzaqlaşsam da, burada Sücaətin uşaqlıq dostu və qohumu mərhum şairimiz Məmməd Aslanın ibrətamiz, əxlaqa dayaq olan bir şeirini yazımın gənclərə tövsiyə xarakterli bu hissəsinə əlavə etməyi lazım bildim. Yəqin oxucularımız qəbahət saymaz.

**- De, kim səni sevməz, kim saxlamazdı,**
**Kim candan keçməzdi vüsalın üçün.**
**Namusun ləkəli, başın qapazlı,**
**De, kim günahkardı bu halın üçün?!**

Yəqin ki, tənəli sözlər, bu şeirlər müasir gənclər üçün bir tərbiyə nümunəsidi. Həm də səksəkəli yolçular, bu halı keçirənlər, soyuq qucaqlardan sürüşüb düşənlər üçünsə bir ibrət dərsidi. Eyni zamanda bu, şeirin, ədəbiyyatın, cəmiyyətin tərbiyəsindəki böyük gücüdü.

Sücaət heç vaxt yonulmamış söz deməzdi. Nə qədər sərt kəlmə, qafiyəyə yovuşmaz söz olsa da belə, Sücaətin misralarında çox nizam sıralanır, onun dilində rəvan tələffüz olunurdu.

**Sücaət, qürbətdə buz tək soyuduq,**
**Vətəndə köməkdik, haraydıq, haydıq.**
**Kimsəsiz tərgitdik, oğulsuz qoyduq,**
**O bizdən oğulluq uman dağları.**

Sücaətin söz ruzigarı həmişə ayazımış, buludsuz, ulduzlu səma kimi görünür. Oxucu onun şeirlərində özünü aydın görür, durulaşmış saf məhəbbətinə baxır. Onun misralarına, qafiyələrinə elə bürünür ki, sanki sehrli xalat kimi ovsunlanıbdı, ömrü boyu açılmayacaqdır.

**Gizlincə alışır, gizlincə yanır,**
**Tüstüsün aləmə yaymır ürəyim.**
**Özü çəkdiyinin yüzdə birini**
**Sənin çəkməyinə qıymır ürəyim.**

Adətən oxucu şairin söz dünyasından bəhrələnir. O, müəllifi görmür, şairin duyğularını onun qələmindən oxuyur, ürəyinin səsini misralarından eşidir.

Sücaətin kəlmələrində bulantı yoxdu. Körpə ana südündən doymadığı kimi hər bir oxucu da, xanəndə də, aşıq və aşiq də Sücaətin şeirlərindən doymur. Özünün saf duyğularını o şeirlərin qıjovunda, şırranında, şəlaləsində çimizdirir.

**Kövrəlmişəm, elsiz dağa dönmüşəm,**
**Saralmışam, barsız bağa dönmüşəm.**
**Bir kimsəsiz kür uşağa dönmüşəm,**
**Qan ağlayır, gözüm sənsiz qalıbdı.**

və yaxud,

**Gah odlardan götürmüşük bir-biri,**
**Gah da cana gətirmişik bir-biri.**
**Xeyli vaxtdı itirmişik bir-biri,**
**Girəvədi, dərdlərimin yerin de.**

Hər hansı bir məclisdə, şənlikdə, toyda-düyündə Sücaətin şeirləri oxunursa, mütləq duyğulu insan əlini saxlayıb, başını qaldırıb, nəfəsini dərmədən ona qulaq asır. Bax, bu, şair cazibəsidi, qələm sahibinin özünün icad etdiyi, kəşf etdiyi "cazibə qanunu"du. O qələm sahibi xoşbəxtdir ki, ətrafına bax belə oxucu yığa bilir. Sücaət məhz belə şairlərdəndir.

Sücaətin oxucuya ərməğan etdiyi kəlmə sovqatı bəzəkli xonçaya bənzəyir, açıldıqca rəngarəngdir. Onun qafiyələrində qətrə qədər xılt, zərrə qədər uyğunsuzluq yoxdu. Qafiyələr süzülə-süzülə, bir-birinə boy verə-verə şeiri bəzəyir.

**Ölümə nə var ki, birdəfəlikdi,**
**Sevib, ayrı düşmək kaş olmayaydı.**
**Nəğmələr quş kimi qanadlananda,**
**Gözlərdən süzülən yaş olmayaydı.**

**Mənim qəlbim kimi inləməz kaman,**
**İlk eşqi itirmək yamandı, yaman.**
**Könüllər odlara qalanan zaman**
**Ürəklər bərkiyib, daş olmayaydı.**

Sücaətin çox yetişmiş səsi, dərin boğazı vardı. O, şeir deyəndə səs vulkan kimi püskürürdü. Dinləyəni odalova bürüyürdü. Onun səsi sözün deyə bilmədiyi sözü deyirdi. Kəlmələr qaynar olurdu. O kəlmələrin odu-alovu şairin içindəydi, onun özünü yandırırdı, ömrünü qətrə-qətrə kəsirdi. Deyimin həlimliyi isə bizi sərinləşdirir, rayihəsini üstümüzə çiləyirdi. Ona görə ki, o, bijərtdərək, qaçağan, sürüşkən söz demirdi. Qafiyədə oturan, misranı ağırlaşdıran, insanı düşündürən söz deyirdi.

Bunlar Sücaətin yaradıcılığının qısa xronikasıdı. Onun bizə çatmayan, çap olunmayan bəlkə də yüzlərlə şeiri onu tanıyan-tanımayan minlərlə insanın ürəyində, dilindədi. Mən əminəm ki, onun qardaşı - iti qələm, kəskin söz, bədii təfəkkür sahibi olan Hidayət Elvüsal, yeganə oğlu Azər və bütün Sücaət sevənlər, bizim poeziya vurğunlarımız gələcəkdə bunların toplanılıb, çap olunması kimi xeyirxah bir işin təşəbbüskarı olacaqlar.

***P.S. Mən vaxtı ilə Sücaətin 65 illik yubileyinə həsr olunmuş yığıncağa yazdığım teleqramın mətnini yazıma əlavə edirəm.***